| | | |
|---|---|---|
| **Ümumi məlumat** | **Fənnin adı, kodu və kreditlərin sayı** | AZH150, Azərbaycan tarixi, 6 AKTS |
| | **Departament** | Tarix və Arxeologiya departamenti |
| | **Proqram (bakalavr, magistr)** | Bakalavr |
| | **Tədris semestri** | 2025/26-ci tədris ilinin yaz semestri |
| | **Fənni tədris edən müəllim (lər)** | Dr. Yaqub Məmmədov |
| | **E-mail:** | yaqubamea@gmail.com |
| | **Telefon:** | 0519310189 |
| | **Mühazirə otağı / Cədvəl** | |
| | **Məsləhət saatları** | Müəllimin təyin etdiyi vaxtda |
| **Prerekvizitlər** | **Yoxdur** | |
| **Tədris dili** | **Azərbaycan dili** | |
| **Fənnin növü (məcburi, seçmə)** | **Məcburi** | |
| **Dərsliklər və əlavə ədəbiyyat** | **Əsas dərsliklər:**<br>1. Azərbaycan tarixi (ən qədim zamanlardan -XXI əsrin ilk onilliklərinədək) Ali məktəblər üçün dərslik. M.Q.Abdullayevin redaktəsi ilə.Bakı, 2016. (cədvəldə bu dərsliyin səhifələri göstərilmişdir). (2017. 2018, 2019-cu ilin nəşrləri ilə eynilik təşkil edir)<br>2. Azərbaycan tarixi, I cild (Ən qədim zamanlardan XX əsrədək). Z. Bünyadovun və Y. Yusifovun redaktəsilə. Bakı,2005.<br>3. İsmayıl Məmmədov. Azərbaycan tarixi. Bakı, 2005.<br>4. Azərbaycan tarixi (uzaq keçmişdən 1870-ci illərə qədər) red. prof. Süleyman Əliyarlı. Bakı, 2009.<br>5. XX əsr Azərbaycan tarixi, II cild, Red. Y.B. Yusifov və T.T. Vəliyev. Bakı, 2004.<br>6. Azərbaycan tarixi (ən qədim dövrlərdən zəmanəmizədək). İradə Nuriyeva. Bakı: Elm və təhsil, 2019.<br>7. Azərbaycan tarixi (ən qədim zamanlardan XXI əsrin ilk onilliklərinədək). Həsən Qəniyev. Bakı, "Elm və Təhsil" 2019.<br><br>**Əlavə dərsliklər və elmi monoqrafiyalar:**<br>1. Azərbaycan Respublikasının tarixi (1991-2021-ci illər). I-II cild. Bakı, Elm və təhsil, 2022<br>2. Azərbaycan tarixi üzrə qaynaqlar, red. S.Əliyarlı Bakı, 2007.<br>3. Solmaz Qaşqay. Manna dövləti. Bakı 1993<br>4. Fəridə Məmmədova. Azərbaycanın siyasi tarixi və tarixi coğrafiyası, Bakı, 1993 (IV fəsil, §1-2).<br>5. Ziya Bünyadov. Azərbaycan VII-IX əsrlərdə, Bakı ,2004 ( III fəsil, § 2, §8; V fəsil § 2).<br>6. Ziya Bünyadov. Azərbaycan Atabəyləri dövləti (1136-1225-ci illər) Bakı,"Şərq-Qərb, 2007, 312 s.<br>7. Oqtay Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti, Bakı, 1993 (I fəsil, II fəsil s.33-35, s.46-49). | |

| | |
|---|---|
| | 8. Bayramlı Z.,Şabiyev B. Azərbaycan Səfəvi dövləti (XVI-XVII əsrlər) Bakı, Avropa nəşriyyatı, 2016, 344 s.<br>9. Sara Aşurbəyli. Şirvanşahlar dövləti .Bakı, Avrasiya press,2006, 416 s.<br>10. Tadeuş Svyatoçovski. Rusiya və Azərbaycan . Bakı, Xəzər Universitəsi, 2000.<br>11. Cəmil Həsənli. İkinci dünya müharibəsi illərində Azərbaycan hərbi, siyasi və diplomatik münasibətlərdə (1939-1945) Bakı, 2015.<br>9. Araz Aslanlı. Qarabağ problemi, (tarixi, mahiyyəti, həll prosesi). Bakı, 2009.<br>12 Abbasqulu Ağa Bakıxanov. Gülüstani İrəm. Bakı, Elm, 1993.<br>13. Y.Mahmudov, K.Şükürov. Qarabağ: real tarix, faktlar, sənədlər Bakı, “Təhsil”2005<br>14. Qarabağ Azərbaycandır. Zəfər Epopeyası. Kollektiv monoqrafiya. Bakı, 2021. |
| **Kursun vebsaytı** | • https://www.ebooks.az/category_historyaz.html<br>• https://ebooks.az/category_historyaz.html<br>• www.azerbaijan.az<br>• www.aztarix.azeriblog.com<br>• www.azerbaycanli.org<br>• www.history.az/Kitabxana/Kitablar<br>• www.menazerbaycanliyam.wordpress.com/tarix-kitablari<br>• www.kitabyurdu.org/kitab/tarix /<br>• http://www.tarix.gov.az/books.php<br>• http://tarix.info/elektron-kitablar/ |
| **Kursun təsviri** | Azərbaycan tarixi kursu qədim zamanlardan son günlərədək vətən tarixini əhatə edir. Son illər konseptual dəyişmələr baş verdiyindən bir sıra məsələlərə baxış əvvəlkindən kəskin şəkildə fərqlənir. Bəzi tarixi hadisələr yeni faktlarla zənginləşib, müəyyən dövrlərdəki boşluqlar doldurulmaqdadır. Tədris proqramının tərtibi zamanı bütün bu amillər nəzərə alınmış, tarixin qaranlıq səhifələrinə diqqət artırılmışdır. İş planı Azərbaycan tarixi barədə bitkin və dolğun təsəvvürün formalaşmasına imkan verir. Proqramın tərtibi zamanı daha çox fənn haqqında ümumi anlayışların möhkəmləndirilməsinə və tələbələrin dünyagörüşünün formalaşmasına xidmət etməsi nəzərdə tutulmuşdur. |
| **Kursun məqsədləri** | ✓ Azərbaycan tarixinin qədim dövrlərdən müasir dövrə qədər inkişaf mərhələlərini sistemli şəkildə öyrətmək,<br>✓ Azərbaycan xalqının tarixi irsini, dövlətçilik ənənələrini və mədəni inkişafını tanıtmaq, milli kimlik və vətəndaşlıq şüurunu möhkəmləndirmək.<br>✓ Tarixi hadisələri mənbələr əsasında təhlil etmək bacarığını formalaşdırmaq.<br>✓ Tarixi faktları müasir kontekstlə əlaqələndirmək. |
| **Tədrisin (öyrənmənin) nəticələri** | **Fənnin ümumi tədrisi prosesində tələbələrdə:**<br>- Azərbaycan torpaqlarının qədim tarixi haqda tələbələrdə dəqiq məlumat və dərin təsəvvür yaranacaq.<br>- Azərbaycanın dünya və şərq tarixindəki mühüm mövqeyi lazım olduğu formada tələbələrə çatdırılacaq.<br>- Azərbaycan tarixinin mərhələləri və bu mərhələlərə keçidlərin tarixi arxa planı aydınlaşdırılacaq.<br>- Azərbaycan xalqının yaranmasında rolu olan amillər izah ediləcək. |

| | | | |
|---|---|---|---|
| | - Azərbaycan coğrafiyasının tarixi əhəmiyyəti ətraflı şəkildə öyrəniləcək.<br>- Azərbaycan tarixindəki böyük şəxsiyyətlər, tələbələrə daha yaxından tanıdılacaq.<br>**Qazanılmış təcrübə**<br>- tarixi hadisələrin analizi;<br>- müxtəlif mənbələri təhlil etməklə onlardan nəticələrin çıxarılması;<br>- tarixi hadisələrə tənqidi və obyektiv yanaşma;<br>- Azərbaycanın mədəni-tarixi inkişaf mərhələlərinin araşdırılması və Azərbaycanın müasir dövrdə dünya miqyasında rolu və yerinin müəyyənləşdirilməsi. | | |
| **Tədris metodları** | **Mühazirə** | **X** | |
| | **Qrup müzakirəsi** | **X** | |
| | **Praktiki tapşırıqlar** | **X** | |
| | **Praktiki məsələnin təhlili X** | **X** | |
| | **Digər** | **X** | |
| **Qiymətləndirmə** | **Komponentləri** | **Tarix/son müddət** | **Faiz (%), bal** |
| | **Aralıq imtahanı** | **Noyabr** | **35 bal** |
| | **Davamiyyət** | **Semestr boyu** | **5 bal** |
| | **Yazı işi/məqalə** | **Aralıq imtahanından sonra** | **5 bal** |
| | **Yoxlama yazı işi (quiz)** | **Aralıq imtahanından əvvəl**<br>**Final imtahanından əvvəl** | **10 bal (5+5)** |
| | **Aktivlik** | **Semestr boyu** | **10 bal** |
| | **Final imtahanı** | **Yanvar** | **35 bal** |
| | **Yekun** | | **100 bal** |
| **Qaydalar (Tədris siyasəti və davranış)** | **Aktivlik**<br>Dərslərdə, diskussiyalarda, prezentasiyalarda və elmi məşğələlərdə iştirak etmək.<br>**Davamiyyət**<br>Tələbələrin bütün dərslərdə iştirakı vacibdir. Tələbələr müəyyən səbəblərdən dərslərin buraxılması (xəstəlik, ailə vəziyyəti və s.) haqqında məlumatı fakültə dekanlığına təqdim etməlidirlər. 25%-dən artıq dərs buraxan tələbələr imtahana buraxılmır.<br>**Dərsə gecikmə**<br>Dərsə 10 dəqiqədən artıq gecikən tələbəyə qaib yazılır. Buna baxmayaraq, tələbə dərsdə iştirak edə bilər.<br>**Dərsin təşkili**<br>- Fənnə aid ümumi xarakterli məlumatlar mühazirə zamanı tələbələrə çatdırılacaqdır.<br>- Yeni mövzu əyani vasitələrin (PPT xəritə, foto və video fayllar) nümayişi ilə izah ediləcəkdir.<br>- Aralıq və final imtahanları öncəsi tələbələrin mənimsəmə səviyyələri (Quiz) yoxlanılacaqdır | | |

| | |
|---|---|
| | **Kurs işi (Layihə)**<br>Kurs işinin əsas məqsədi tələbələrə sərbəst yazı, tədqiqat qabiliyyətinin öyrədilməsi, tariximizin ən qədim zamanlardan bu günə kimi dövrü ilə bağlı istənilən mövzu ətrafında müstəqil şəkildə hazırlıq qabiliyyətini aşılamaqdır. Mövzular müstəqil şəkildə və ya müəllimin təqdimatı üzrə hazırlanaraq **prezentasiya** şəklində edilir. Prezentasiya vaxtı, sonunda müzakirə də daxil olmaqla 15-dəqiqədən artıq olmamalıdır. Prezentasiya mövzuları və qaydaları haqda dərsdə daha geniş tanışlıq olunacaqdır Kurs işi, layihə və tapşırıqlar Tələbələr tapşırıqları yerinə yetirərkən plagiarizmə yol verməməli, əldə etdikləri məlumatların mənbələrinə istinad etməli və istinadları göstərməlidir. Tələbələrin qiymətləndirmə üçün müəllimə təqdim etdiyi tapşırıqlarda 25% və daha artıq Plagiarizm halları (müvafiq istinadların mənbəyinin göstərilməsi halları istisna olmaqla) aşkarlandığı zaman iş sıfırlanır.<br>**Tədqiqat tapşırığı (research assignment)**<br>Araşdırma tələb edən tapşırıqların əsas məqsədi tələbənin analitik bacarıqlarını və müstəqil tədqiqat aparmaq bacarığını yoxlamaq üçündür. Oxunulan tarixi materialı təhlil etməklə tənqidi yanaşma, dərketmə, refleksiya bacarığını inkişaf etdirmək, müzakirə edilən material haqqında bilikləri möhkəmləndirmək üçün bu xüsusi tapşırıq növü təyin edirlər.<br>**Yoxlama işi**<br>İki yoxlama işi keçiriləcəkdir. Birinci yoxlama aralıq imtahanından, ikinci yoxlama isə final imtahanından əvvəl keçiriləcəkdir. Müəllimə və dekanlığa qabaqcadan məlumat verilməklə, üzrlü səbəbdən yoxlama işində iştirak etməyən tələbə yoxlama işini növbəti həftədə yaza bilər.<br>**İmtahanlar**<br>Aralıq imtahanı 1-7-ci mövzuları əhatə edir.<br>Final İmtahanı 8-15-ci mövzuları əhatə edir.<br>Aralıq və yekun imtahanı mövzuları tələbələrə imtahandan öncə verilir. Sual tipləri və sual sayıları haqda da tələbələrə məlumat verilir. Aralıq imtahanının sualları yekun imtahanında təkrarlanmır.<br>**İmtahan qaydalarının pozuntuları**<br>Aralıq və yekun imtahanları vaxtı tələbə tərəfindən imtahanın gedişini pozmaq və köçürülmələr qadağandır. İmtahan zamanı imtahan nəzarətçisinin dediklərinə tam olaraq əməl edilməlidir. Bu qaydalara riayət etməyən tələbələrin imtahan işi ləğv olunur və tələbə 0 (sıfır) qiymət ilə imtahandan kənarlaşdırılır.<br>**Fənni bitirmək qaydası**<br>Universitetin qaydalarına müvafiq olaraq kursu bitirmək üçün ümumi müvəffəqiyyət faizi 60% və yuxarı hesab edilir. Kəsiri olan tələbə bu fənni növbəti semestr və ya növbəti il təkrarən götürə bilər.<br>**Tələbələrin davranış qaydaları**<br>Dərs zamanı dərs prosesini və etik qaydaları pozmaq qadağandır. Həmçinin tələbələr arasında icazəsiz müzakirələr və mobil telefonlardan, smart watchlardan, planşetlərdən və digər bütün elektron cihazlardan istifadə etmək qəti qadağandır. Buna əməl etməyən tələbələr sinif otağından çıxarılacaq. |
| **Cədvəl (dəyişdirilə bilər)** | |

| Həftə | Tarix | Fənnin mövzuları | Dərslik/Tapşırıqlar |
|---|---|---|---|
| 1 | | Tələbələri Azərbaycan tarixi fənninin iş proqramı və onların qarşısında duran vəzifələr ilə tanış etmək. | Azərbaycan tarixi (ən qədim zamanlardan - XXI əsrin ilk onilliklərinədək) M.Q.Abdullayevin redaktəsi ilə. Bakı, 2015 I fəsil , § 1-.5. s. 5-30 |
| | | Azərbaycanda ibtidai-icma dövrü haqqında anlayış. Manna dövləti, Atropatena, Antik Qafqaz Albaniyası. | |
| 2 | | Azərbaycan III-VII əsrlərdə. Feodal münasibətlərinin yaranması, siyasi və mədəni həyat. | II fəsil , § 5 s.30-40]; II fəsil, § 6 s.40-51 |
| | | Azərbaycanda ərəb işğalları və ona qarşı mübarizə. Xürrəmilər hərəkatı. Ərəb ağalığı dövrü | |
| 3 | | Etnogenez problemi. Azərbaycan xalqının formalaşması. Xalqın formalaşmasında rol oynamış bir sıra etnik toplular haqda qısa məlumat. | II fəsil , § 7, s. 51-61; III fəsil , § 8-10 s.61-96 |
| | | Azərbaycan IX yüzilliyin ikinci yarısı – XI yüzillikdə. Azərbaycan feodal dövlətləri və səlcuqlular haqqında. Eldənizlər dövləti. IX-XIII yüzilliklərdə Azərbaycan mədəniyyəti. | |
| 4 | | Monqolların I, II, III yürüşü. Azərbaycan Monqol ağalığı dövründə. Azərbaycan Hülakülər imperiyasının mərkəzi kimi. Qazan xanın islahatları. | IV fəsil , § 11-13, s. 97-108, IV fəsil , § 14 s.109-112 |
| | | Azərbaycan XIV yüzilliyinin sonu-XV yüzillikdə. Ölkənin ictimai siyasi həyatı. Toxtamış və Teymurun Azərbaycana yürüşləri. Şirvanşah I İbrahim. XIII – XIV əsr mədəniyyəti. | |
| 5 | | Azərbaycan Baharlı və Bayandurlu sülalələri dövründə. Sosial-iqtisadi vəziyyət, xarici siyasət. | V fəsil , § 15-16, s.112-123, VI fəsil , § 17, s.123-128 |
| | | Azərbaycan XVI yüzillikdə. Mərkəzləşdirilmiş Azərbaycan Səfəvi dövlətinin yaranması. Şah I İsmayıl və Şah I Təhmasib. | |
| 6 | | Azərbaycan XVI yüzilliyin sonu - XVII yüzilliyin əvvəllərində. Şah I Abbasın hakimiyyəti (1587-1629). | VI fəsil , §18-20 s.128-153; |
| | | Azərbaycan Səfəvi dövləti XVII-XVIII əsrin əvvəllərində. İmperiyanın zəifləməsi və Azərbaycanın beynəlxalq rəqabət meydanına çevrilməsi (XVIII yüzilliyin 20-30-cu illəri). Səfəvi mədəniyyəti | |
| 7 | | Azərbaycanda dövlət müstəqilliyi uğrunda mübarizə. Nadir şah Əfşarın tarix səhnəsinə gəlişi. | VI fəsil , § 20 s.153-157; |

| | | | |
|---|---|---|---|
| | | Azərbaycan xanlıqlarının yaranması, idarəçilik sistemi, təsərrüfat həyatı, xarici siyasəti haqqında. Şəki, Qarabağ, Quba və Urmiya xanlıqlarının müxtəsər tarixi. Birləşdirmə siyasətinin təfərrüatları. Xanlıqların dövlət quruluşu və sosial - iqtisadi həyatı. XVIII əsr mədəniyyəti | VII fəsil , § 21<br>s.158-170 |
| **ARALIQ İMTAHANI** | | | |
| 8 | | Azərbaycan beynəlxalq münasibətlərdə (XVIII əsrin sonu - XIX əsrin əvvəli). Qacarların Azərbaycan tarixində yeri və rolu. XVIII əsr mədəniyyəti. | VIII fəsil,<br>§ 22-24 s.170-193, |
| | | I və II Rusiya-Qacar müharibəsi. Kürəkçay müqaviləsi. Gülüstan müqaviləsi. Türkmənçay müqavilələrinin Azərbaycan üçün nəticələri. Çarizmin köçürmə siyasətinin mahiyyəti. XIX yüzilliyin birinci yarısında Şimali Azərbaycanda ictimai-siyasi həyat. İqtisadi durum. Müstəmləkə zülmünə qarşı üsyanlar. | |
| 9 | | Şimali Azərbaycan XIX yüzilliyini ikinci yarısında. Kapitalist münasibətlərinin yaranması və inkişafı. Bu dövrdə Rusiya tərəfindən keçirilmiş islahatlara baxış. | VIII fəsil, § 25-27<br>s.194-219; |
| | | Azərbaycan millətinin formalaşması. XIX əsrdə Azərbaycan mədəniyyəti | |
| 10 | | Azərbaycan XX əsrin əvvəllərində. Bakının dünya neft mərkəzi kimi yüksəlişi. Milli - azadlıq hərəkatının yeni mərhələsinin (1905 - 1917) başlanması. Milli partiyaların yaradılması. 1905 - 1906 -cı illər "erməni - müsəlman davası". Azərbaycanlı deputatların Rusiya Dövlət Dumalarında fəaliyyəti. | IX fəsil, § 29-30,<br>s. 220-235, |
| | | Azərbaycan I Dünya müharibəsi illərində. İqtisadi vəziyyət. XX əsrin əvvəllərində Azərbaycan mədəniyyəti | IX fəsil, § 32-34,<br>s. 238-259, |
| 11 | | Fevral inqilabından sonra Şimali Azərbaycanda ictimai - siyasi vəziyyət. 1918-ci ilin Mart soyqırımı. | X fəsil, § 23-32,<br>s. 230-258, |
| | | Azərbaycan Xalq Cümhuriyyətinin yaranması: daxili və xarici siyasəti. Aprel işğalı və işğaıçılara qarşı mübarizə. | |
| 12 | | Azərbaycan SSR. Azərbaycan 1920-1930-cu illərdə. Azərbaycan SSR-in ZSFSR və SSRİ-yə daxil edilməsi. Sovet hakimiyyətinin qurulması. İctimai və siyasi vəziyyət. Azərbaycanda Sovet totalitarizmi. 30-cu illərin repressiyaları. | XI fəsil, § 38-40<br>s.279-309<br>XII fəsil, §41<br>s.309-318 |
| | | Totalitar rejimin möhkəmlənməsi M.C.Bağırov hakimiyyətinin müsbət və mənfi cəhətləri.<br>Azərb. SSR II Dünya müharibəsi illərində. | |
| 13 | | Azərbaycanlıların Ermənistan SSR-dən deportasiyası. İ.Mustafayev. V.Axundov. Azərbaycan SSR 70-80-ci | XIII fəsil, § 43-44,<br>s.327- |

| | | | |
|---|---|---|---|
| | | illərdə. H.Əliyev. Millətçilik və vətənpərvərlik meyllərinin artması. “İldırım” təşkilatı. | |
| | | Cənubi Azərbaycan XX əsrdə. Güney Azərbaycanda demokratik hərəkatın rəhbərləri Səttarxan, Ş.M.Xiyabani, S.C.Pişəvəri | IX fəsil § 31. s. 235-238, § 35. s.256-259 |
| 14 | | Azərbaycan SSR 80-ci illər-90-cı illərin əvvəllərində. “Dağlıq Qarabağ problemi”nin ortaya atılması. Yeni siyasi partiyalar, ictimai təşkilatlar. AXC-nin yaranması və onun rolunun artması. Azərbaycanlıların Ermənistandan deportasiyası. 1990-cı il 20 Yanvar faciəsi. | XIV fəsil, §45 s.331-338 |
| | | Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa edilməsi. Müstəqil Azərbaycan Respublikasının inkişaf problemləri. Daxili və xarici vəziyyət. A.Mütəllibov, Y.Məmmədov, İ.Qəmbər, Ə.Elçibəy. Ermənistanın Azərbaycana təcavüzü və Dağlıq Qarabağ müharibəsinin başlanması, Xocalı soyqırımı. Respublikada ictimaisiyasi böhran, torpaqların işğalı. Hərbi uğursuzluqlar. | |
| 15 | | Heydər Əliyevə ikinci dəfə Azərbaycanda hakimiyyətə gəlməsi. Heydər Əliyevin yeni siyasi kursu. Siyasi sabitliyə doğru. Azərbaycan-Ermənistan münasibətləri. Atəşkəs. | XIV fəsil, §45-46, s.338-344 |
| | | İlham Əliyevin prezident seçilməsi, dövlət idarəçiliyinin təkmilləşdirilməsi. Heydər Əliyev kursunun davam etdirilməsi.Dağlıq Qarabağ uğrunda aparılan diplomatik mübarizə. 44 günlük müharibə. | |
| **Final İmtahanı** | | | |